# Ekoloji liderlik yolunda tarixi addım

***Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Tərəflər Konfransı (COP) dünya miqyasında iqlim dəyişmələri mövzusunda ən mühüm platformalardan biri hesab olunur. Bu tədbir 1990-cı illərin ortalarından bəri İqlim Dəyişmələri haqqında UNFCCC çərçivəsində hər il keçirilir və inkişaf etmiş ölkələr üçün hüquqi cəhətdən məcburi istixana qazı emissiyalarının azaldılması öhdəliklərini nəzərdə tutan Kioto Protokolunu da əhatə edir. Bu konfranslar dünyadakı bütün ölkələr üçün iqlim böhranına qarşı vahid addımların atılması baxımından çox mühüm platforma rolunu oynayır.***

Bir neçə gündən sonra COP29-un Bakıda keçirilməsi Azərbaycan üçün böyük əhəmiyyət daşıyır. BMT Baş Assambleyasından sonra ölkələrin ən geniş şəkildə təmsil olunduğu bu beynəlxalq konfrans dünya liderləri, ekspertlər, hökumət nümayəndələri və vətəndaş cəmiyyəti təşkilatlarını Bakıya toplayaraq Azərbaycanın iqlim dəyişmələri ilə mübarizədə qlobal səylərə verdiyi töhfəni nümayiş etdirmək üçün ideal fürsət yaradır. İki həftə boyunca rəsmi Bakı demək olar ki, dünyanın diqqət mərkəzində olacaq. Ümumilikdə 70-80 min nəfər xarici qonağın ölkəyə gəlməsi gözlənilir. Bu tədbirin ölkə üçün müsbət təsirləri təkcə iqlim dəyişmələri ilə bağlı məqamlarla məhdudlaşmır. COP29 çərçivəsində turizm və logistika sahələrində xidmətlərin keyfiyyətinin artırılması, beynəlxalq standartlara cavab verən infrastrukturun təkmilləşdirilməsi, yüzlərlə yeni mütəxəssisin yetişdirilməsi planlaşdırılır. Bu dəyişikliklər uzunmüddətli dövrdə Azərbaycan üçün həm iqtisadi, həm də ekoloji sahədə mühüm nailiyyətlərə zəmin yaradacaq. Regional turizmdə yeni marşrutlar, şəhər turları, genişləndirilmiş xidmət çeşidi və keyfiyyət standartları ilə ölkəmizdə turizmin inkişafına təkan veriləcək. Azərbaycanın COP29-a ev sahibliyi etməsi BMT tərəfindən ölkənin iqlim dəyişmələri mövzusunda öhdəliklərinə sadiq qalmasının tanınmasıdır. Bu, həmçinin beynəlxalq səviyyədə ölkədəki siyasi və iqtisadi sabitliyin təsdiqi kimi dəyərləndirilir.

**(davamı 8-ci səhifədə)**



ısı
a-
in-
latı
dan
Bu,




# Ekoloji liderlik yolunda tarixi addım



(əvvəli 1-ci səhifədə)

Belə mühüm tədbirin Bakıda keçirilməsi Azərbaycanın davamlı inkişafa və qlobal iqlim siyasətinə verdiyi əhəmiyyətin bariz sübutudur. COP29-un Bakıda keçirilməsi Azərbaycanı yalnız qlobal iqlim gündəminin bir parçası deyil, həm də bu gündəmin formalaşmasında fəal iştirakçı olaraq mövqeləndirir. Azərbaycan son illərdə siyasi, iqtisadi və regional arenalarda mühüm layihələrə imza ataraq beynəlxalq səviyyədə öz mövqeyini gücləndirməkdədir. Bu fəaliyyətlərin əhatəliliyi Azərbaycanın dünya siyasətində unikal bir nümunəyə çevrilməsinə səbəb olur. Artıq dördüncü ildir ki, Azərbaycan BMT-dən sonra ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatına sədrlik edir və bu onun qlobal miqyasda oynadığı əhəmiyyətli rolu təsdiqləyir. Bununla yanaşı, ölkəmiz Avropa İttifaqının doqquz üzv ölkəsi ilə strateji tərəfdaşlıq bəyannaməsi imzalayaraq Avropa və Asiya arasındakı strateji əlaqələrdə önəmli bir mərkəzə çevrilmişdir. Azərbaycan həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvü olmaqla, Şərq və Qərb arasında körpü rolunu oynayır.

Azərbaycanın bu mövqeyinin təsdiqi kimi BMT-nin COP29 iqlim sammitinin Bakıda keçirilməsi qərarı da Azərbaycanın qlobal "yaşıl enerji" siyasətinə verdiyi önəmin beynəlxalq səviyyədə etiraf edilməsidir. Bu mühüm tədbirin Azərbaycanda keçirilməsi münasibətilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ekoloji və enerji siyasətində "yaşıl inkişaf"a sadiq qaldığını bir daha göstərir. Bir vaxtlar dünya bazarlarına neft və qazla çıxış edən Azərbaycan indi isə "yaşıl enerji"nin yeni bazarlarında öz yerini möhkəmləndirir. Bu, Azərbaycanın enerji strategiyasında yeni bir eraya keçidin başlanğıcını qoyub. Ölkəmizdə elektrik enerjisinin qoyuluş gücündə 2030-cu ilə qədər bərpaolunan enerjinin payını 30 faizədək artırmaq məqsədilə mühüm addımlar atılır. Azərbaycanda "yaşıl enerji"yə keçid imkanları da genişdir. Belə ki, ölkənin quru ərazilərində 135, dənizdə isə 157 qiqavatlıq bərpaolunan enerji potensialı mövcuddur. Bu potensialın iqtisadi baxımdan 27 qiqavat həcmində qiymətləndirilməsi Azərbaycanın "yaşıl enerji" ixracatı üçün mühüm imkanlar yaradır. Külək enerjisi üzrə 3 min, günəş enerjisi üzrə 23 min və bioenerji üzrə 380 meqavatlıq gücə malik olmaqla, ölkəmiz qlobal "yaşıl enerji" bazarında yeni oyunçuya çevrilir. Hətta Azərbaycanın dağ çaylarının 520 meqavatlıq hidroenerji potensialı da bu keçid prosesində mühüm rol oynayır. İşğaldan azad olunmuş ərazilər - Qarabağ və Şərqi Zəngəzur da ölkəmizin "yaşıl enerji bölgəsi" adını qazanmış və burada genişmiqyaslı işlər aparılır. Məsələn, Kəlbəcər və Ağdərə rayonlarında geotermal və günəş enerjisi ehtiyatlarının səmərəli istifadəsi ilə "yaşıl enerji"nin ölkə daxilində yayılması təmin olunur. Laçın, Qubadlı və Zəngilan rayonlarında hidroenerji mənbələri, Şuşa, Xocavənd və Cəbrayıl rayonlarında külək enerjisi, Tərtər, Ağdam və Xocalı rayonlarında bioenerji ehtiyatları isə Azərbaycanın "yaşıl enerji" istehsalçısı kimi beynəlxalq mövqeyini gücləndirəcək. Bundan əlavə, Qarabağda və Şərqi Zəngəzurda hidroenerji potensialının fəal istifadəsi nəticəsində burada yaxın illərdə hidroelektrik stansiyaların gücünün 500 meqavata çatdırılması planlaşdırılır ki, bu da ölkəmizin "yaşıl enerji"yə keçid prosesinə böyük töhfədir. Azərbaycanın enerji siyasətində bu yeni istiqamət ölkəmizi təkcə enerji ixracatçısı kimi deyil, həm də ekoloji məsuliyyət daşıyan bir ölkə kimi tanıdacaq və regionda davamlı inkişafın aparıcı qüvvəsinə çevrilməsinə imkan verəcək.

Azərbaycanın "yaşıl enerji" siyasəti Cənubi Qafqazın yeni enerji dinamikasını müəyyənləşdirərək, Avropanın "yaşıl enerji" ehtiyaclarının qarşılanmasında strateji rol oynamağı hədəfləyir. Ölkəmiz bərpaolunan enerjini Gürcüstan və Qara dəniz üzərindən Avropaya çatdırmağı planlaşdırır. 2026-cı ildən sonra Azərbaycanın "yaşıl enerji"sinin Avropa İttifaqı bazarında xüsusi çəkiyə malik olması gözlənilir. Bu, Avropanın enerji təhlükəsizliyi baxımından da mühüm əhəmiyyət daşıyır, çünki Azərbaycan bu istiqamətdə sürətlə addımlar atır və "yaşıl enerji"nin ixracı üçün yeni layihələr həyata keçirir.




Azərbaycanın "yaşıl enerji" təşəbbüsü həm də daxili iqtisadiyyatın modernləşdirilməsinə xidmət edir. Bu ölkəmizin ənənəvi enerji ixracatından "yaşıl enerji" istehsalına keçid etməklə iqtisadiyyatı diversifikasiya etməsinə və ekoloji davamlılığı təmin etməsinə imkan yaradır. Azərbaycanın "yaşıl enerji" potensialı və bu sahədəki səyləri ölkəmizi Avropanın "yaşıl enerji" ehtiyaclarını təmin edən mühüm tərəfdaşlardan biri kimi önə çıxarır. COP29 dövlətimizin bu sahədəki addımlarını dünyaya təqdim etməklə yanaşı, ölkəmizin iqlim dəyişmələri ilə mübarizədə aparıcı mövqe tutmaq niyyətini də bir daha təsdiqləyir. Bu təşəbbüs Azərbaycanın gələcək nəsillərə daha təmiz və yaşıl bir dünya miras qoyma yolunda strateji addımlar atdığını bütün dünyaya nümayiş etdirəcək.

COP29 ölkəmizin dünya miqyasında iqlim dəyişmələrinə qarşı mübarizədə nə qədər ciddi olduğunu göstərir. Bakıdakı konfrans mərkəzinin cəmi 9 ayda tikilib hazır vəziyyətə gətirilməsi Azərbaycanın beynəlxalq layihələrə hazırlığını və qlobal müzakirələrdə fəal iştirakını əks etdirən böyük nailiyyətdir. Ölkəmiz bu tədbirlə həm də ekoloji məsuliyyətə və qlobal iqlim siyasətinə sadiqliyini bütün dünyaya nümayiş etdirir. Azərbaycanın belə qısa müddət ərzində bu qədər möhtəşəm bir tədbiri təşkil etməsi ölkəmizin gücünü və çevikliyini təsdiqləyir. Bu cür beynəlxalq konfranslar təkcə problemləri müzakirə etməklə kifayətlənmir, eyni zamanda ölkələr arasında davamlı əlaqələrin qurulmasına və qlobal səviyyədə ekoloji məsələlərə vahid yanaşmanın formalaşmasına zəmin yaradır. Bundan əlavə, tədbirin təşkilində 10 min nəfərdən çox könüllünün təlimə cəlb olunması da konfransın geniş əhatəsini göstərir. Hər könüllü burada təkcə təşkilati işlərdə yardım etməklə kifayətlənməyəcək, həm də iqlim dəyişmələri ilə bağlı maarifləndirmə işlərində fəal iştirak edəcək. Gənclərin bu cür beynəlxalq tədbirlərə inteqrasiyası Azərbaycan üçün də yeni bir hərəkat yaratmaq gücündədir. Bu tədbirdə iştirak edən könüllülər iqlim böhranının mahiyyətini öz icmalarında bu barədə məlumatlılıq yaratmaq üçün fəaliyyət göstərəcəklər. COP29 həm də yerli icmalara və gənclərə çağırış edir, onların iqlim siyasətində fəal rol oynamasına imkan yaradır. Bu tədbirin hər anında iştirak edən gənclər iqlim problemlərinin həllinə dair öz töhfələrini verərək yeni bir nəsil iqlim liderləri kimi yetişəcəklər. Azərbaycan COP29 vasitəsilə gənclərin ətraf mühit məsələlərinə dair fəal rolunu təşviq edir və iqlim dəyişmələri ilə mübarizədə gələcəyin səsinə qulaq asır.

Ümumiyyətlə, COP29 Azərbaycanın ekoloji mövzulara necə ciddi yanaşdığını və bu məsələdə öncül bir rola iddialı olduğunu açıq şəkildə nümayiş etdirir. Tədbirin uğurlu keçirilməsi Azərbaycanın iqlim böhranı ilə mübarizədə liderliyə doğru atdığı mühüm addımlardan biridir və qlobal ekoloji müzakirələrdə daha güclü mövqe qazanmasına imkan verəcəkdir.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**